UOT 334.72:352.1

Əbdülcəlil Zaur oğlu KAZIMOV
magistrant
E-mail: kazimovabduljalil@gmail.com

Firuzə Nəcəf qızı ƏLİYEVA
Azərbaycan Kooperasiya Universtiteti
"Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi" kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru
E-mail: firuzanecef@gmail.com
https://doi.org/10.30546/4.71.731.03.2026.21

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ SAHİBKARLIĞIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi Qarabağ və Şərqi Zəngəsur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının müasir vəzifələrinin müəyyənləşdirilməsi və bu ərazilərdə sahibkarlığın inkişaf istiqamətlərinin araşdırılması, təkliv və tövsiyələrin işlənib hazırlanmasıdır.

Tədqiqatın metodologiyası. Tədqiqatın nəzəri-metodoloji əsaslarını yerli və xarici ölkə alimlərinin əsərləri, Milli Məclis tərəfindən qəbul edilmiş qanunlar, işğaldan azad olunmuş ərazilərdə sahibkarlığın inkişafı istiqamətləri ilə bağlı fərman və sərəncamlar, normativ-hüquqi aktlar və qərarlar təşkil edir.

Tədqiqatın tədbiqi əhəmiyyəti. Tədqiqatın əsas nəticələri və irəli sürülmüş təklif və tösiyələr işğaldan azad olunmuş ərazilərdə sahibkarlığın inkişafında tədbiq edilə bilər.

Tədqiqatın nəticələri. İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın inkişafı ölkədə iqtisadi artımın təmin olunmasında başlıca amil kimi qiymətləndirilir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın inkişafı milli iqtisadiyatın əsas sahələrindən olub, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında mühüm rol oynayır. Həmçinin, idxalı əvəz edən yerli məhsulların istehsalı artacaqdır.

Açar sözlər: ***aqrar, biznes, sosial-iqtisadi həyat, investisiya, azad edilmiş ərazilər, sahibkarlıq.***

Giriş

Azərbaycan xalqı tarixin ən yaddaqalan şərəfli illərini yaşayır. Qırx dörd günlük Vətən Müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, Qarabağ və Şərgi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işləri, yeni infrastrukturların yaradılması istiqamətində görülən işlər burada sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli şərait yaratmışdır. Azərbaycan Respublikası Prezidenti tərəfindən 2021-ci il 10 dekabr tarixli sərəncam imzalanmışdır. Bu sərəncam sosial-iqtisadi həyatın canlanmasında, Qarabağ və Şərgi Zəngəzurun bərpası, sahibkarlıq fəaliyyətində mühüm rol oynayır.

Azərbaycanda sahibkarlığın stimullaşdırılması üçün biznes və investisiya mühiti davamlı şəkildə yaxşılaşdırılır, qanunvericilik təkmilləşdirilir və sahibkar–dövlət münasibətləri gücləndirilir. İqtisadi dəstək proqramları vasitəsilə investisiya cəlbediciliyi artırılır, sahibkarların maliyyə bazarlarına çıxışı asanlaşdırılır, ənənəvi və yeni bazarlarda payları genişləndirilir. Bu tədbirlər özəl sektorun güclənməsinə və ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsinə imkan yaradır.

Sahibkarlıq fəaliyyətinin nəzəri və təkamül əsaslarının inkişaf etdirilməsində bir çox iqtisadi amillər iştirak etməsinə baxmayaraq, ilk dəfə olaraq A.Smit tərəfindən iqtisadi, sosial və idarəçilik baxımından inkişaf etdirilmişdir.

G.Şumpeter sahibkarlığın mahiyyətinin və qanunlarının müasir nəzəri-metodoloji kvalifikasiyasını sistemli şəkildə izah etmişdir. Tədqiqat onun hazırda məlum olan bütün elementlərini, tərkib

hissələrini ayıraraq, sahibkarlığın iqtisadiyyatın və cəmiyyətin inkişafında yenilik, innovasiyalarla əlaqəsini metodoloji cəhətdən sübut etmiş, xüsusi ilə qeyd etmişdir ki, “sahibkar olmaq yeni birləşmələri təcəssüm etdirmək deməkdir”. Yəni, sübut etdi ki, sahibkarlıq gəlir əldə etmək məqsədi ilə resursların və kapitalın yaradıcı birləşmələrinin subyektidir. Ümumiyyətlə, bu klassik anlayışda sahibkarlığın bir fenomen kimi mahiyyəti, bir proses kimi sahibkarlıq fəaliyyəti bazarın idarə edilməsi praktikasnda, eləcə də, elmi dövriyyədə istifadə olunur.

Şumpeter iqtisadi inkişafı sahibkarlığın keyfiyyət əlamətləri prizmasından səmərəlilik və sosial faydalılığa nail olmaq prosesi kimi hesab edirdi [1, səh 299].

Əminliklə qeyd edə bilərk ki, işğaldan azad edilmiş ərazilərdə idxalı əvəz edən yerli məhsulların istehsalı artırılacaqdır.

Müstəqillik dövründə ölkəmizin aqrar sahədə əldə edilən təcrübələrinin işğaldan azad edilmiş rayonlara transfer edilməsi, orada sahibkarlıq fəaliyyətlərinin təşviq edilməsi üçün xüsusi dəstəkləmə proqramlarının həyata keçirilməsi, heyvandarlıq və bitkiçilik sahəsində zəruri infrasturktur qurulması kimi məsələlər prioritet əhəmiyyətə malikdir.

İşğaldan azad olunmuş ərazilərin inkişafı istiqamətində beynəlxalq təcrübənin istifadəsi də əhəmiyyətlidir. BMT-nin FAO təşkilatının İraq və Əfqanıstanda müharibədən sonrakı dövrdə aqrar sahədə iri həcmli layihələr həyata keçirmək təcrübəsi var. Kənd təsərrüfatı sahəsində dayanıqlığın və bərpanın təmin edilməsi, deqradasiya olunmuş torpaqların bərpası və su ehtiyatlarından daha səmərəli istifadə, kiçik fermer təsərrüfatlarının davamlı məhsuldarlığının təmin edilməsi kimi layihələrdən əldə edilmiş təcrübələrin ölkəmizdə də istifadə imkanlarını qiymətləndirmək mümkündür.

Qarabağ və Şərgi Zəgəzur İqtisadi rayonlarının formalaşması və sosial-iqtisadi inkişafının müasir vəzifələrinin müəyyənləşdirilməsi, reallaşdırılması, inkişaf etdirilməsi müasir dövrümüzün ən aktual və vacib məsələlərindəndir. İşğaldan azad edilmiş ərazilərdə müvəqqəti idarəetmə formaları təmin edilmiş, iqtisadi rayonların yeni bölgüsü hazırlanmış, eyni zamanda bu vaxta kimi mövcud olan 12 iqtisadi rayon 14-ə çatdırılmış və işğaldan azad olunmuş ərazilərdə buranın spesifik xüsusiyyətləri, tarixi inkişaf qanunauyğunluqları, resursları, ərazi-coğrafi yerləşməsi, yeraltı və yerüstü sərvətlər və digər amillər nəzərə alınaraq Azərbaycan Respublikasının İqtisadi rayonlarının yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli Fərmanına əsasən iki yeni iqtisadi rayon - Qarabağ və Şərgi Zəngəzur İqtisadi rayonları yaradılmışdır.

Azərbaycan Respublikası Ekologiya və Təbii sərvətlər Nazirliyinin açıqlamasına görə işğaldan azad edilmiş ərazilərdə 167 müxtəlif təyinatlı qazıntı yataqları mövcuddur. Onlardan 5-i sement və soba üçün xammal, 42-si üzlük, müasir və müxtəlif növ tikinti daşları, 19-u gips və gil, 14-ü əlvan və bəzək daşları, 21-i pemza və vulkan milli yataqlarıdır.

Torpaq islahatının aparılması

Torpaqların yalnız kəmiyyət göstəricilərinin deyil, həm də aqrokimyəvi araşdırmalar əsasında onların keyfiyyət xüsusiyyətlərinin müəyyənləşdirilməsi azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişaf istiqamətlərinin düzgün seçilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Torpaq və su ehtiyatlarının qiymətləndirilməsi həyata keçirildikdən və onların uçot sistemi formalaşdırıldıqdan sonra əsas istiqamətlər islahatların reallaşdırılmasıdır. Bu istiqamətdə bir sıra əlverişli və müsbət amillər mövcuddur.

Növbəti mərhələdə heyvandarlıq fermalarının yaradılması və təsərrüfatların heyvan ehtiyatı ilə təmin edilməsi istiqamətində məqsədyönlü addımlar atılmalıdır. Heyvandarlığın intensiv inkişaf imkanları nəzərə alınaraq, müasir tələblərə cavab verən fermaların qurulması və onların yüksək məhsuldarlığa malik heyvanlarla komplektləşdirilməsi xüsusi aktuallıq daşıyır. Eyni zamanda, bu proses iqtisadi səmərəliliyin yüksəldilməsi məqsədilə fermaların optimal ölçü və struktur əsasında təşkilini də əhatə etməlidir.

Hazırda hökumətin aqrar sahədə həyata keçirdiyi dövlət dəstəyi tədbirləri, eləcə də aqrobiznes istiqamətində tətbiq olunan investisiya təşviqi mexanizmləri işğaldan azad edilmiş ərazilərin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən düzəlişlər tələb edir. Mövcud dəstək və təşviq siyasəti əsasən

ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışının genişləndirilməsinə yönəlib. Halbuki, azad olunmuş ərazilərdə prioritet məsələ bu sahələrin əvvəlcə yenidən qurulmasıdır.

Son zamanlar ölkəmizin aqrar sektorunun idarə edilməsinin təkmilləşdirilməsi və bu sahədə aparılan struktur dəyişikliklər diqqətə layiqdir. Qlobal Çağırışlar şəraitində Azərbaycanın aqrar sektorunun inkişafı məqsədi ilə ilk öncə onun strukturunun mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılması və səmərəlilik problemlərinin həlli yolları müəyyənləşdirilməlidir. Bu kimi məsələlər Qarabağda fundamental xarakter daşımalı və həmin amillər nəzərə alınmalıdır, bölgənin aqrar sahənin idarə olunması mexanizmləri müasir yüksək texnologiyalara əsaslanmalı, ağıllı, innovativ və rəgəmsal texnologiyalardan istifadəyə üstünlük verilməlidir [3].

Qarabağ və Şərgi Zəngəzurda reallaşan quruculuq və bərpa işləri, dövlət başçısının bu sahədə imzaladığı tarixi fərman və sərəmcamların yerinə yetirilməsi görülən tədbirlərin səmərəliliyinin artırılmasına öz töhfəsini verir.

İşğaldan azad edilmiş ərazilərə dəstək tədbirləri

Son zamanlar ölkəmizdə aqrar sektorun idarə edilməsinin təkmilləşdirilməsi və bu sahədə aparılan struktur dəyişikliklər diqqətə layiqdir.

Əsas dəstək tədbirləri:

- **Vergi güzəştləri:** mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən, sənaye parkında fəaliyyət göstərən sahibkarlar 10 il müddətinə azad olunur.
- **ƏDV və Gömrük rüsumlarından azad olma:** vergilər, avadanlıq, idxal olunan texnika, xammal və materiallara görə tətbiq edilmir.
- **Maliyyə dəstəyi;**
- **Məcburi dövlət sığorta haqqında subsidiyalaşdırlma;**
- **Dövlət tərəfindən kommunal xidmətlər:** elektrik, qaz, su 20% ödənilir**.**
- **Faizlə subsidiyalar, güzəştli kreditlər, 5 milyon manatadək yeddi il müddətinə verilir.**
- **İqtisadi prioritetlər:** sahibkarlığın inkişafında əsas diqqət kənd təsərrüfatı, Şərgi Zəngəzur iqtisadi rayonuna yönəlir.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin canlandırılmasına yönəlmiş bir sıra vergi təşviqləri təsdiq edilmişdir. Bu bölgələrin geniş turizm potensialı nəzərə alınaraq, turizm sektoruna tətbiq olunan ümumi güzəştlərdən əlavə, mehmanxana xidmətlərinə görə ödənilən ƏDV-nin istehlakçılara geri qaytarılması mexanizmi də fəaliyyətə başlayacaq. Bu təşəbbüslər həm turizm sənayesini sürətlə inkişaf etdirəcək, həm də yerli iqtisadiyyatın dirçəlişinə və məşğulluğun artmasına əhəmiyyətli töhfə verəcək.

Bu tədbirlərin həyata keçirilməsi azad edilmiş ərazilərdə regional iqtisadiyyatı canlandırmaq məqsədi daşıyır.

Azad edilmiş ərazilərin sənaye potensialının reallaşdırılması, təbii və iqtisadi resurslardan səmərəli istifadə olunması istiqamətində işlər davam etdirilir.

Regionda yaradılmış Ağdam və “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında sənaye istehsalının qurulması və qabaqcıl texnologiyaların tətbiqi istiqamətində sistemli tətbirlər görülür. Ağdam Sənaye Parkının bir çox hissəsi sahibkarların istifadəsinə verilib, qalan hissəsi üzrə sahibkarlardan investisiya müraciətlərinin qəbulu davam edir.

Sənaye Parklarında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli mühit yaradılıb, qaz, işıq, su, kanalizasiya, fiber optik xətlər, dəmir yolu, daxili avtomobil yolları dövlət vəsaiti hesabına təmin edilir.

Rezidentlər on il müddətinə əmlak, gəlir vergilərindən, istehsal məqsədli texnologiyalardan, avadanlıqların və qurğuların idxalı zamanı gömrük rüsumundan azad edilirlər.

44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərin minadan təmizlənməsi, Qarabağ və Şərgi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işləri sahibkarlq fəaliyyəti üçün əlveriışli imkanlar yaradır. Sahibkarlıq Qarabağ və Şərgi Zəngəzurun bərpasında mühüm rol oynayır. Hazırda Qarabağ və Şərgi Zəngəzurda əsas investor Azərbaycan dövlətidir.

Qarabağ və Şərgi Zəngəzurda reallaşan quruculuq və bərpa işləri, dövlət başçısının bu sahədə

imzaladığı tarixi fərman və sərəncamların yerinə yetirilməsi görülən tədbirlərin səmərəliliyinin artırılmasında öz töhfəsini verir.

Qarabağda aqrar sahənin bərpası və innovativ inkişafı şəraitində informasiya-məsləhət xidmətləri sisteminin əsas fəaliyyət istiqamətlərinə aşağıdakılar daxil edilməlidir:

- Təsərrüfat subyektlərinin ETT-nin nailiyyətləri haqqında məlumatlarla təmin edilməsi;
- Qarabağda aqrar sahənin innovativ inkişafı üzrə proqramların hazırlanması;
- Kənd təsərrüfatı istehsalçılarının texnika və texnoloji cəhətdən yenidən təchiz edilməsi üzrə məsləhətləşmənin təşkili;
- İnnovativ inkişafların praktiki tədqiqində dəstəyin göstərilməsi;
- Kənd təsərrüfatı istehsalçıları tərəfindən innovasiyaların inkişafı üçün sərgilərin, yarmarkaların, seminarların və digər tədbirlərin davamlı olaraq keçirilməsi;
- Elektron və çap informasiya materiallarının və digər dövri nəşrlərin təşkili [4].

Qarabağda əlverişli biznes mühitinin yaradılması

Qarabağda biznes mühitinin inkişafı üçün sahibkarlara əlverişli şərait yaradılır. İşğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafı kənd təsərrüfatının, heyvandarlığın, inşaat sahəsinin, ümumilikdə isə, iqtisadiyyatın bütün sahələrinin daimi inkişafına təkan verəcəkdir.

Füzuli Beynəlxalq hava limanının istifadəyə verilməsi biznesin inkişafı və xüsusi investorların cəlb edilməsi üçün mühüm stimul olmaqla, həmçinin Şərgi Zəngəzur iqtisadi rayonunun inkişafında da müsbət nəticə verəcəkdir.

2025-ci ildə Qarabağ və Şərgi Zəngəzur İqtisadi rayonunda sahibkarlıq sürətlə inkişaf etmiş, bir çox kənd təsərrüfatı, sənaye və infrastruktur layihələri formalaşmışdır.

İqtisadiyyatın prioritet sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin təşviqində dövlətin maliyyə dəstəyi alətləri mühüm əhəmiyyət daşıyır. Azərbaycanda sahibkarlığın, xüsusilə kiçik və orta biznesin inkişafına yönəlmiş siyasətin icrasında Sahibkarlığın İnkişafı Fondu tərəfindən tətbiq olunan maliyyə mexanizmləri biznes mühitinin möhkəmləndirilməsinin əsas vasitələrindən hesab olunur. Bu çərçivədə, güzəştli kreditlər sahibkarların fəaliyyətlərini genişləndirmək və investisiya imkanlarını artırmaq üçün ən çox istifadə etdikləri maliyyə alətlərindən biridir.

KOBİA-ya 3500-dən çox yerli sahibkarların müraciəti bu bölgənin biznes fəallığını artırmış, 19000-dən çox əhalinin doğma yurdlarına köçürüldüyü ərazilərdə 45.6 milion manat güzəştli kredit verilmiş, 3300 km-dən çox yeni nəqliyyat infrastrukturu yaradılmışdır.

Sahibkarlıq fəaliyyətini inkişaf etdirmək və bölgəyə investisiya yatırmaq istəyən yerli və xarici biznes subyektlərinə KOBİA aşağıdakı istiqamətlərdə dəstək göstərir:

- Peşəkar məsləhət xidməti
- İnvestisiya potensialına dair məlumat dəstəyi
- Bölgənin iqtisadi potensialına dair məlumat dəstəyi
- Yerli tərəfdaşların tapılmasına dəstək
- Müvafiq dövlət qurumları ilə əlaqə yaratmaq.

Üzümçülük, tütünçülük, pambıqçılıq, barama istehsalı, meyvə-tərəvəz istehsalı bostançılıq və heyvandarlığın inkişafı üçün böyük imkanlar təqdim edir. Bu ərazilərdə əsas bitkilərə qarğıdalı, noxud və üzüm daxildir. Beləliklə, azad edilmiş ərazilərimizin təbii sərvətləri və kənd təsərrüfatı potensialı bölgədə iqtisadi bərpanın sürətlənməsinə zəmin yarada bilər.

Bu dəstək agentliyin Zəngilan İqtisadi rayonunun Ağalı kəndində, Laçın, Kəlbəcər rayonlarında fəaliyyət göstərən ofisləri və Şuşa şəhərində Dövlət Xidmət Mərkəzində yerləşən KOB evi vasitəsilə təmin olunur.

2025-ci ilin oktyabr ayına qədər KOBİA-ya işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq və investisiya yatırmaq istəyən sahibkarlar tərəfindən 4000-dən çox müraciət daxil olub ki, onlardan 3500-dən çoxu yerli sahibkarların və bölgədə biznes qurmaq istəyən şəxslərin müraciətləridir [5].

İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarlara 2025-ci ilin dekabr ayınadək ümumilikdə 45,6 milyon manat məbləğində güzəştli kredit təqdim edilib.

Azərbaycan Biznesinin İnkişafı Fondundan (ABİF) verilən məlumata görə, sahibkarların bank

və bank olmayan kredit təşkilatlarından cəlb etdikləri kreditlərin 90 faizədək hissəsinə dövlət zəmanəti təmin olunur. Bununla yanaşı, həmin kreditlər üzrə illik faiz dərəcəsinin 10 faiz bəndi maksimum 36 ay müddətində dövlət tərəfindən subsidiyalaşdırılır.

Cari ilin dekabr ayınadək 43 layihə üzrə sahibkarların banklardan götürdüyü 55,9 milyon manat kreditə 47,8 milyon manat dövlət zəmanəti verilib. Eyni zamanda kredit faizlərinin subsidiyalaşdırılması üçün 14,4 milyon manat vəsaitin ayrılması təsdiqlənib [6].

İşğaldan azad edilmiş ərazilərdə sahibkarların banklardan aldıqları kreditlərə zəmanət verilib, kredit faizləri subsidiyalaşdırılıb.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası, sahibkarlığın inkişafı və investisiya mühitinin yaxşılaşması dövlət siyasətinin prioritetlərindən biridir. Bu məqsədlə Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) bölgədə fəaliyyət göstərən sahibkarları maliyyə alətləri və güzəştli maliyyə mexanizmləri ilə dəstəkləyir.

“İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək” mexanizmi çərçivəsində bu bölgələrdə investisiya layihələri həyata keçirən sahibkarlar zəmanət-subsidiya mexanizmi ilə dəstəklənirlər. Mexanizmə əsasən sahibkarların bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlərin məbləğinin 90%-dək hissəsinə dövlət zəmanəti verilir. Eyni zamanda həmin kreditlər üzrə illik faiz dərəcəsinin 10 faiz bəndi 36 aya qədər müddətdə dövlət tərəfindən subsidiyalaşdırılır və kreditin müddətinin yarısınadək olmaqla 36 aya qədər güzəşt müddəti tətbiq edilir.

Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafını sürətləndirmək üçün xüsusi proqramlar qəbul edib. Bu ərazilərdə fəaliyyət göstərmək istəyən iş adamları üçün Dövlət Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlər ayrılır. Artıq Ağdam Sənaye Parkı, Cəbrayıl Sənaye Parkı və Şərgi Zəngəzur İqtisadi Rayonunda yeni layihələrin icrasına başlanılıb [7].

Sahibkarlığın İnkişafı Fondu işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın dirçəldilməsi və investisiya fəallığının artırılması məqsədilə xüsusi maliyyə alətlərindən istifadə edir. Bu çərçivədə regionda kreditlərin təqdim olunması nəzərdə tutulur.

Ayrılan vəsaitlər əsasən yeni istehsal və emal müəssisələrinin qurulmasına, mövcud biznes subyektlərinin fəaliyyət miqyasının genişləndirilməsinə və onların texniki-modernizasiya prosesinə yönəldilir. İndiyədək verilmiş kreditlərin əhəmiyyətli hissəsi sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə istiqamətlənib.

Cari ildə Fond tərəfindən azad olunmuş ərazilərdə reallaşdırılan 4 layihəyə ümumilikdə 6 milyon manat həcmində güzəştli maliyyə dəstəyi göstərilib. Həmin layihələr Ağdam Sənaye Parkı rezidentləri tərəfindən icra olunur.

Milli inkişaf strategiyasına uyğun şəkildə, Qarabağ iqtisadiyyatında həm ənənəvi təsərrüfat sahələrinin, həm də yeni yaranan sektorların inkişafı iqtisadi və sosial-siyasi baxımdan prioritet istiqamət kimi çıxış edir. Rəqəmsal iqtisadiyyatın inkişaf meyllərinin təhlili, regionda əhalinin rifahının davamlı artırılması və inklüziv inkişafın təmin olunması üçün müasir və innovativ texnologiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Qarabağ iqtisadi rayonunda innovasiya yönümlü infrastrukturun yaradılması və rəqəmsal həllərin geniş şəkildə tətbiqi ölkənin aktual strateji hədəfləri sırasındadır.

Nəticə

İşğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin sürətlə həyata keçirilməsi, əhalinin öz doğma torpaqlarında tezliklə məskunlaşması və bu regionda yüksək həyat şəraitinin yaradılması dövlət siyasətinin qarşısında duran əsas prioritet vəzifələrdən biridir.

Tədqiqatlar göstərir ki, işğaldan azad olunmuş ərazilərdə şirkətlər üçün əlverişli mühitin yaradılması, xüsusi ilə, vergi güzəştləri və onun mexanizmlərinin genişləndirilməsi, qrant proqramları, aşağı faiz kreditləri, texnoparkların inkişafı və genişləndirilməsi iqtisadi artımın yüksəlməsinə müsbət təsir edə bilər.

Qarabağın bərpasında əlçatan, şəffaf və səmərəli maliyyə-kredit mexanizmləri önəmli əhəmiyyət daşıyır. Belə mexanizmlərin geniş istifadəsi bölgənin aqrar-sənaye sahələrinin dirçəlməsində xüsusilə əhəmiyyətlidir. Buna görə, Qarabağ regionunun kənd təsərrüfatı və aqrar sənayesinin inkişafı üzrə maliyyə-investisiya mexanizmlərinin formalaşdırılması, həmin mexanizmlərin inkişafını və mövcudluğunu təmin edən maliyyə, kredit və investisiya müəssisə, birlik, assosiasiya və fondlar şəbəkəsinin təşkili önəmli şərtlərdəndir.

Araşdırmalar göstərir ki, ətraf mühitə mənfi təsir göstərməyəcək yaşıl energetika, aqrar sahənin inkişafı istiqamətində addımlar, turizm sektorunun inkişafı üçün ərazinin füsunkar təbiətinin olduğu rayonlarda kurort mərkəzlərinin yenidən dirçəlməsi üçün dövlət dəstəyinin verilməsi və xarici mütəxəssislərin bölgəyə cəlb olunmasını təmin etmək, o cümlədən ağıllı kəndlərin inkişafına dair layihələrin hazırlanmasına dəstəyin göstərilməsi vacib məsələlərdəndir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası məqsədilə müasir texnika və yüksək səviyyəli texnologiyadan, xammal, enerji və innovativ layihələrdən daha səmərəli istifadə, sahibkarlıq subyektinin inkişafı bu ərazinin dayanıqlı iqtisadi və sosial inkişafına, məşğulluq səviyyəsinin yüksəlməsinə geniş imkanlar yaradacaqdır.

Planlaşdırılan bərpa tədbirlərinin reallaşdırılması və istehsal prosesinin qurulması üçün xüsusi xarakterli dəstək mexanizmlərinin tətbiqi zəruridir. Mövcud aqrar siyasət ümumilikdə sahənin inkişafına yönəlsə də, azad olunmuş ərazilərdə əlavə olaraq kənd təsərrüfatının yenidən qurulması və infrastrukturunun formalaşdırılması ilə bağlı xüsusi mexanizmlərin hazırlanması və tətbiqi ehtiyacı nəzərə alınmalıdır.

Sahibkarların istehsal və ixrac imkanlarını artırmaq və biznes mühitini yaxşılaşdırmaq məqsədilə effektiv mexanizmlər tətbiq edilir. Onlardan biri investisiya fəaliyyətinin genişləndirilməsidir ki, bu da sahibkarlığın inkişafına və iqtisadiyyatın güclənməsinə töhfə verir.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçiriləcək bərpa və inkişaf layihələri Azərbaycan dövlətinin maliyyə sərmayələrini dəfələrlə üstələyəcək yeni iqtisadi dəyər yaradacaq. Bu proses genişmiqyaslı iş yerlərinin açılmasına, yerli iqtisadiyyatın canlanmasına və vətəndaşların məşğulluğunun artırılmasına zəmin hazırlayacaq. Yeni infrastruktur və kənd təsərrüfatı layihələri bölgədə dayanıqlı inkişaf modelini formalaşdıraraq iqtisadi potensialı maksimum dərəcədə realizə etməyə imkan verəcək.

Tədqiqatlar göstərir ki, azad edilmiş ərazilərin bərpası, dayanıqlı inkişafın təmin olunması, müasir sürətli inteqrasiya infrastrukturunun qurulması, mədəni-tarixi abidələrin bərpası istiqamətində tədbirlər mühüm əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Nizami Qafarov. Azərbaycanın aqrar sənaye kompleksi: Formalaşması və davamlı inkişaf problemləri, Bakı, 2024, 463 səh.
2. https://ikisahil.az/
3. Məhərrəmov E.M. Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişafına konseptual yanaşma. Geostrategiya jurnalı, 2022, N4 (70), sıh 119-123
4. Eldar Quliyev. “Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu”, monoqrafiya, Bakı, 2023
5. Azərtac.az/xəbər/gov
6. https://mi-news.az
7. https://economy.gov.az
8. https://vergiler.az/news/economy/11182.html

Абдулжалил Заур оглу Казимов,
магистрант
E-mail: kazimovabduljalil@gmail.com

Фируза Наджаф кызы Алиева
Азербайджанский Университет Кооперации
доцент кафедры «Организация бизнеса,
государственного и муниципального управления»
доктор философии по экономическим наукам
E-mail: firuzanecef@gmail.com

Направления развития предпринимательства на освобожденных территориях

Резюме

Цель исследования. Целью исследования является определение современных задач социально-экономического развития Карабахского и Восточно-Зангезурского экономических регионов, изучение направлений развития предпринимательства на этих территориях, разработка и подготовка предложений и рекомендаций.

Методология исследования. Теоретической и методологической основой исследования являются работы зарубежных ученых, законы, принятые Милли Меджлисом, указы и распоряжения, касающиеся направлений развития предпринимательства на освобожденных территориях, нормативно-правовые акты и решения.

Прикладная значимость исследования заключается в том, что основные результаты исследования и предложенные предложения и рекомендации могут быть применены в развитии предпринимательства на освобожденных территориях.

Результаты исследования. Развитие предпринимательства на освобожденных территориях оценивается как ключевой фактор обеспечения экономического роста в стране.

Оригинальность и научная новизна исследования. Развитие предпринимательства на освобожденных территориях является одним из главных направлений национальной экономики, играет важную роль в повышении уровня жизни населения, формирование малых и средних предприятий придаст значительный импульс динамичному развитию некоммерческого сектора. Также увеличится производство местной продукции, замещающей импорт.

Ключевые слова: аграрный, бизнес, социально-экономическая жизнь, инвестиции, освобожденные территории.

Abduljalil Zaur Kazimov
Master's student
***E-mail* kazimovabduljalil@gmail.com**

Firuza Aliyeva
Azerbaijan Cooperation University, PhD in Economics
Associate Professor of the Department of "Business Organization,
State and Municipal Administration"
***E-mail:* firuzanecef@gmail.com**

Development directions of entrepreneurship in the liberated territories

Summary

The purpose of the study is to determine the modern tasks of the socio-economic development of the Karabakh and East Zangasur economic regions and to study the development directions of

entrepreneurship in these territories, to develop and prepare proposals and recommendations.

Research methodology. The theoretical and methodological basis of the study is the works of foreign scholars, laws adopted by the Milli Majlis, decrees and orders related to the development directions of entrepreneurship in the liberated territories, normative and legal acts, and decisions.

The applied significance of the study is that the main results of the study and the proposed proposals and recommendations can be applied in the development of entrepreneurship in the liberated territories.

Research results. The development of entrepreneurship in the liberated territories is assessed as a key factor in ensuring economic growth in the country.

Originality and scientific novelty of the study. The development of entrepreneurship in the liberated territories is one of the main areas of the national economy, plays an important role in improving the living standards of the population, the formation of small and medium-sized businesses will give a significant impetus to the dynamic development of the non-profit sector. Also, the production of local products that replace imports will increase.

Key words: Agrarian, business, socio-economic life, investment, liberated territories.